**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**№ 15 (2049) 20 fevral 2020-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# MƏNİM ÖLMƏZ İDEALLARIM

**(əvvəli 18 fevral sayımızda)**

**Ümumiyyətlə, əgər yaşadığımız dünyanın ƏDALƏTLİ HAKİMLƏRİ bir araya gəlib" MİR CƏFƏR BAĞIROV" işinə yenidən baxsaydılar, ermənilərin, eləcə də Bağırov ətrafında cəmləşən "küçüklərin" etdikləri cinayətlər onun üstündən götürülsəydi, Bağırovun Azərbaycan və azərbaycanlılar üçün nələr etdikləri aşkara çıxarılsaydı, yekdilliklə Mir Cəfər Bağırova şəhərin ən uca nöqtəsində tuncdan heykəl qoymaq qətnaməsi qəbul olunardı).**

Mirzə İbrahimovun daha bir cəsarətli hərəkəti, 1988-ci ildə Qorbaçovun dəstəyi ilə yaradılmış "Dağlıq Qarabağ" oyunu ilə əlaqədar Moskvada çağırılan SSRİ Ali Sovetinin növbədənkənar sesiyasında, həm azərbaycanlıların və həm də ermənilərin ortaq sözü olan "namusdan" söz açması idi. O, bütün SSRİ xalqlarına ermənilərin bir qonşu olaraq namussuz hərəkət etmələrini açıq-aydın göstərmişdi

Mirzə müəllim xarici görünüşü kimi, daxilən də təvəzökar və pak bir insan idi. Vəzifəli və tanınmış insanları müşaiyyət edən cangüdənlərin olmadığı bir zamanda, universitetin 1-ci kursunda oxuduğum 1960-cı ildə, Mirzə müəllimin başqa birisi ilə indiki M.Ə.Rəsulzadə küçəsində piyada getdiyini görmüşdüm. Bir kənd uşağı kimi, həyatını və əsərlərini dərs kitablarından oxuyub öyrəndiyimiz böyük bir şəxslə həyatda rastlaşmağım, son dərəcə heyrətlənməyimə səbəb olmuşdu. Təəccüb doğuran başqa bir şey isə, onun, yolun hərəkət hissəsinə düşmüş kiçik çörək parçasını əyilərək qaldırıb divar səkisinə qoyması idi

***

Bu,bir ingilis filosofunun ifadəsidir: "Dünyanın zənginliyi məhz bənzərsiz



şəxsiyyətləridir". Mən tərəddüd etmədən bu ifadəni 1959-1966-cı illər arası Bakı şəhər zəhmətkeş deputatlar soveti icraiyyə komitəsinin sədri işləmiş Əliş Cəmil oğlu Ləmbəranskiyə şamil edirəm. Mənim bu qənaətim Əliş müəllim haqqında eşitdiyim xoş sözlər, onun xeyirxah əməlləri və bugünkü gözəl Bakımızın ilk Meri olmasıdır.

Yaşıdlarım yəqin ki, dənizkənarı bulvarın 1956-cı ildəki durumunu unutmayıblar. Küləkli havada Xəzərin şahə qalxmış dalğalarının qarşısını alan heç bir mühəndis texniki qurğu yox idi. Dalğalar çəkiləndən sonra sahil çoxlu sayda şişmiş balıq cəsədləri, mazutlu taxta-şalban qırıqları və saysız-hesabsız məişət tullantıları ilə dolu olardı. Natəmizlik baş alıb gedərdi. Sahildə gəzərkən üst-başımız çirkab sularla islanardı. Yaşıllıqlar yox dərəcəsində idi.

1959-cu ildə Bakı Sovetinə yeni sədr gəlmiş Əliş müəllim, ilk gündən şəhərin abadlıq işlərinə inamla girişdi. Dünyanın qabaqcıl və mədəni dövlətlərini gəzib ən son yenilikləri Bakıya gətirdi. Məişət tullantıları və üfunət girdabına çevrilmiş ərazini təmizzləyib, ətrafında bağ salmaqla, bu gün də fəaliyyətdə olan "Venetsiya kanallarını" yaratdı. Şəhərə xüsusi gözəllik verən, dağüstü parkla sahili birləşdirən funikulyor tramvay dəmiryol xəttini çəkdirdi. Tez bir zamanda Bakımız Neapolla müqayisə olunan bir şəhər səviyyəsinə çatdı.

Əliş müəllimdən qabaq bir çoxları bu vəzifədə çalışsalar da, Onun adı "Bakının Birinci Meri" kimi tarixə düşüb. Görənlər danışardılar ki, Əliş müəllim hər gün, bütün şəhər yatandan sonra onu məhəllə-məhəllə, küçə-küçə gəzərmiş. Səliqə-sahmana, təmizliyə fikir verərmiş. İdarə və müəssisələrin adları yazılmış lövhələrin düzgün yazılışına diqqət yetirərmiş. Yabanı sözləri sevməzmiş, elektrik saatlarından tutmuş ən xırda detallara nəzər yetirərmiş. Əyilmiş tullantı yeşiklərini belə düzəldərmiş. Şəhərin abı havasına uyğun gəlməyən, şəhər mühiti ilə uzlaşmayan, şəhər mühitinə xələl gətirən bayağılıqları sevməzmiş. Hətta danışardılar ki, Əliş müəllim bir gün şəp-şəp və xalatda mağazaya girən bir qadını görmüş, onu dərhal oradan geri çıxartdırmış və 15 günlüyə ev dustağı etdirmişdi.

Əliş Ləmbəranski oldqca duyğulu və qayğıkeş insan olubdur. Bunu mən qaynatam timsalında söyləyə bilərəm. Belə ki, qaynatam gənc yaşlarında həqiqi hərbi xidmətdə olarkən, hərbi qayda-qanuna uyğun olaraq , ondan "əməyin müdafiəsinə hazır ol!" (QTO), normativini ödəmək üçün suda üzməsini tələb edirlər. O isə, üzməyi bacarmadığını israr edir. Buna baxmayaraq, komandiri qəflətən onu suya itələyir və gözlənilməz hadisə baş verir. Əsgər ağır ürək xəstəliyinə düçar olur və bu diaqnoz ilə, bir çox şeylərə, hətta növbədənkənar mənzil



almaq imtiyazı ilə ordudan tərxis olunur. Lakin aradan çox illər keçməsinə və 4 uşaq atası olmasına baxmayaraq, bu imtiyazdan faydalana bilməyir, onu get-gələ salırlar. O, Baksovetə yeni sədr seçilməsi xəbərini eşidib onun qəbuluna yollanır. İş elə gətirir ki, kiçicik qızına və qoltuq ağaçlarına söykənə-söykənə sərt pilləkənləri qalxarkən, Əliş müəllimlə qarşılaşırlar. Əliş müəllimin təkidi ilə dərdini ona söyləyir. Əliş müəllim başını bulayır, "ay insafsızlar" deyə söylənir və: "Qayıt get oğlum. Bir də əziyyət çəkib gəlmə. Özüm sənə xəbər göndərəcəm" deyir..

Doğrudan da, üstündən heç üç ay keçməmiş Əliş müəllim vədinə əməl edir. Əlilə Montin qəsəbəsində yeni tikilmiş binada üç otaqlı mənzil verir. Üstəlik , ailənin imkanlarını nəzərə alıb 4 uşağının hamısını təhsil almaları üçün,o vaxt çox çətin olan internat məktəbə düzəldir.

(Bu sətirləri yazarkən, İsmayıllı rayonunun Tircan kəndində yaşayan 90 yaşlı iki ahıl insan yadıma düşdü. 550-dən çox evi olan kənddə yalnız bu qocaların mənzilinə qaz xətti çəkilməyibdir. Səbəb ən yaxın qaz xəttindən 300 m. aralı olduğu halda, kağız üzərində 600 m. göstərilməsidir. Müraciət etmədikləri dövlət qurumları qalmayıb. Hamısı nəticəsiz qalıb. Halbuki, mavi yanacaqdan faydalanmağa hamıdan çox bu ailənin haqqı var. Ailə başçısı Piriyev Abdulkərim Kərim oğlu dənizdə ilk neft-qaz çıxaran işçilərdən birincisidir. O, Neftçi Qurban, Xoşbəxt Yusifzadə, Bəhmən Hacıyev, Bəxtiyar Məmmədov, Akif Cəfərov, Gülbala Əliyev kimi məşhur neftçilərlə eyni zamanda istehsalata gəlib, onlarla çiyin-çiyinə işləyənlərdəndir. 1960-cı ildən Azərbaycan SSR Ali Soveti Rəyasət Heyyətinin Sədri Səftər Cəfərovun imzası ilə "Fəxri neftçidir". Üstəlik, neft-qaz sənayesi uğrunda 2.10.1997-ci ildə dənizdə baş vermiş vertalyot qəzasında 36 yaşında bir oğul da qurban verib. Görəsən Əliş müəllim sağ olsaydı bu ədalətsizliyə nə ad verərdi?)

Əliş müəllim ocağından daha bir töhvə. İllərlə uzanan mübahisəli bir məsələ üçün Yasamal rayon Xalq məhkəməsinə müraciət etməli olmuşdum. İşə Əliş Ləmbəranskinin oğlu Elman Ləmbəranski baxmalı oldu. İllərlə uzadılan işə ədalətli qərar verən Elman müəllimin də, qaynatam dərddə olduğunu gördüm. Çox sarsıldım. Heç demə,Əliş müəllimin özü də,28 yaşında ikən, 1942-ci ildə cəbhədə yaralanmış, bu səbəbdən ordudan tərxis olunmuşdur.

Çəliyə möhtac olan bu böyük İnsan,ömrünün sonuna kimi bədənində qəlpə parçaları gəzdiribmiş. Qəbrin nurla dolsun, Əliş müəllim!.

***

Bütün şairlərə böyük rəğbətim var. Onun məktəbi yoxdur. Şairlik, şəxsin el-obasına, millətinə bəslədiyi məhəbbətdən doğan can yanğısının təzahürüdir. Belə insanlar Allah dərgahında seçilib sevilənlərdir. Xüsusən mənsub olduğu millətin qəhrəmanlıqlarla dolu keçmişini, əzab və məşəqqətlərini, sevinç və kədərlərini əsərlərində tərənnüm edən, gələcək nəsillərə çatdıran şairlər xalq tərəfindən daha çox sevilirlər.

Bu gün, duyğu və düşüncələri ilə qəlbimə yatan, bədənimin bütün əriş və arğacına hopan belə vətənpərvər şairlərdən bir neçəsi haqda söz açmaq istəyirəm. Onlar Əhməd Cavad, Məhəmməd Hadi, Hüseyn Cavid, Mikayıl Müşfiq, Almas Yıldırım və s.kimi mübariz, çılğın, üsyankar mövqe tutan istiqlal şairlərinin ənənələrini yaşadan Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk və Məmməd Arazdır. Bu günkü müstəqilliyimizin qazanılmasında onların yazdıqları od saçan, qan sızan şeirlərinin danılmaz təsiri olmuşdur.

**Mən milli dərketmənin və milli oyanışımızın tarixini 1960-cı illərin ortalarından başlandığını hesab edirəm. O vaxt, 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin 3-cü kurs tələbəsi ikən təhsildən ayrılıb aparıldığım üç illik həqiqi xidmətdən sonra qayıdıb təhsilimə yenicə bərpa olunmuşdum. Respublikada, eləcə də tələbələr arasında böyük milli coşqu hiss olunurdu. Mətbuat səhifələrində də bunu duymaq olurdu.**

**(ardı növbəti sayımızda)**

***Vaqif Məmmədov***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR